# MİLLİ MƏNƏVİYYATIMIZIN SAFLIQ POEZİYASI



***Elçin İSGƏNDƏRZADƏ***
***AzTU-nun kafedra müdiri, texnika və filologiya elmləri doktoru, professor.***

**Çağdaş Azərbaycan vətəndaşlığının, ziyalılığının, maarifçiliyinin, mətbuatının və poeziyasının ali və etalon təmsilçilərindən biri, filologiya elmləri namizədi Sona xanım Vəliyevanın yaradıcılığı haqqında düşüncələrimi yazmağa hazırlaşarkən ilk ağlıma gələn fikir 2003-cü ildə yazdığım "Şeirlərin rəsmləri, rəsmlərin şeirləri" adlı esse-rabsodiyamdakı ("Çərçivəsiz rəsmlər" kitabı, səh.17) aşağıdakı fikirlər oldu:**

"...Anton Pavloviç Çexov deyir ki, biz hamımız uşaqlıq adlı bir məmləkətdən gəlmişik.

...Mən də uşaqlıq adlı bir məmləkətdən gəlmişəm. Gözümü açıb gəlin duvaqlı ağaclar, pənbə buludlar, xınalı dağlar görmüşəm. Mənim göz açıb gördüyüm dağlar Şuşa dağlarıdı. Şuşa dağları...

"Şuşanın dağları, başı dumanlı..."

Mən uşaqlıqda rəsm çəkməmişəm, dağlara baxıb şeir qoşmuşam. Şeir yazmışam yazmağa əlim gəlmir. Qələm sözə baxmır. Şuşa dağlarının rəsminin şeirini qoşmuşam bəlkə!..

Mənim ilk şeirim Şuşa dağlarıdı".

Sona xanım da uşaqlıq adlı bir məmləkətdən gəlib, bu gözəlim Poeziyaya!!! Və bütün şeirlərində uşaqlıq adlı o məmləkətin zərrə qədər aşınmayan məsumluğunu, saflığını və ilkinliyini qoruyub saxlaya bilib.

Sona xanım da uşaqlıqda dağlara baxıb şeir qoşub... Şuşa dağlarının, Savalanın rəsminin şeirini!..

**Şaha, Şeyxə, Savalana -**
**Gəldim ki, deyəm, zamandır.**
**Oyat göy atlı igidi,**
**Qılınclar qında paslandı.**

***

**İçim də, çölüm də qəm tarixidir,**
**Dərbənd bağlı qapım, Təbriz lal anam.**
**Şuşa baş örtüyüm, sürüşüb düşüb,**
**Şahın hüzurunda necə dayanım?**

Şuşanın dağlarından ayrıldığımdan düz 25 il ötür. Bu 25 ildə eninə-boyuna gəzməyə nəsib olduğum bütün dünya mənə Şuşanın dağları rəngində göründü. Hara gedirəmsə Şuşaya gedirmiş kimi gedib, dönüşdə Şuşasızlıq yanğısıyla qayıtdım. Cıdır Düzü və Xarı Bülbül ömrümün və yaradıcılığımın toteminə, simgəsinə çevrildi. Üç sitat:

1. Türkiyənin məşhur yazıçılarından biri professor Özgen Keskin: "Elçinin Vətən sevgisi o qədər güclüdür ki, ən duyğusal misralar içində belə torpağa və Vətənə bağlılığını hiss etdirir. Misralarının mənası, məsələn Parisi vəsf etdikdə belə onun bütün mənliyi Cıdır Düzündə, Şuşada və Qarabağdadır".

Sona xanımın da bütün şeirlərində bu mənada öz inikasımı gördüm. Hansı mövzudan yazır-yazsın, hansı ovqatda yazır-yazsın, sonunda oxuduqlarımın hamısı mənə uşaqlığımın məsum Şuşa tablosunu xatırladır...

**Səninçün qar adam, qar topu bu qar**
**Mənim həsrətimə qarlar yağacaq.**
**Şuşanın, Laçının ümidi donub**
**Yolların gözü də qar bağlayacaq.**

**Səngərdə əsgər də arzudan keçər**
**Bayrağı Şuşadan Göyçəyə çatar.**
**Qar yağır gecənin qara üzünə**
**Ruhumda son zəfər himni başlayar.**

2. Bu da çağdaş türk şeirinin ən böyük milli şairi Yavuz Bülent Bakilerin səsi: "Elçin İsgəndərzadə bizim Milli ədəbiyyat şairlərimizdən Mehmet Emin Yurdakul və Faruk Nafiz Çamlıbel kimi millətinə və bütün dünyaya haykıran bir şairdi".

Bu da Sona xanımın Vətənin bütövlüyü və azadlığı uğrunda şair haykırtıları:

**Bağlı qapıları bağlı bilməsək,**
**Hər bağlı taleyin öz tilsimi var.**
**Yüz ildir Arazı bağlı bilmişik,**
**Yüz ildir dərdimə tapılmır açar.**

3. Millət vəkili, professor Nizami Cəfərov: "Elçinin şeiri adamın ürəyini, hissini sıxmır, əzmir. Emosiyanı təlatümə gətirmir, ürəyə, hissə olduqca sakit, rəvan, harmonik bir axınla dolur... Qarabağ şikəstəsi kimi!.. Elçin bugünkü, poeziyamızın Qarabağ şikəstəsidi!!!"

Mən də Sona xanımın şeirlərini Şuşada, Cıdır düzündə, Xanın ifasındakı Qarabağ şikəstəsi kimi ruhuma hopdurdum:

**Göyçə, Şuşa, Təbriz dərdi**
**Köhnəldikcə təzələndi.**
**Sönüb külümdən közərdim,**
**Odum boyumdan yuxarı -**
**"Arazbarı".**

Düz 25 ildir ki, yaşadığım Şuşasızlıq faciəsinin ən böyük acısından biri də odur ki, mən Şuşaya və Şuşalı günlərimə məxsus bir kibrit çöpü olsa belə əşyamı erməni-rus işğalı zamanı çıxara bilmədim (anam sağ olsun ki, heç olmasa Ağdamın Əhmədavar kəndindəki evimizin bir dəst açarını özü ilə götürə bilmişdi. Bu mənim doğulduqdan sonra Şuşa və Ağdamda yaşadığım 25 illik ömrümün Qarabağla bağlı yeganə fiziki xatirəsidir).

1999-cu ildə rəssam dostum Gəncəli Vaqif Fazilin emalatxanasında həpbərabər qardaşım Adil Mirseyidlə söhbət əsnasında yuxarıdakı fikirləri ürək yanğısı ilə paylaşdığım zaman Vaqif dərindən ah çəkərək qırmızı şərab qədəhini masanın üstünə qoyub hövlnak ayağa qalxdı. Emalatxanasını 10 dəqiqə ələk-vələk etdikdən sonra əlində kətan yağlı boya ilə işlənmiş 60x60 ölçüdə bir tablo ilə geri döndü:

- Elçin, bu tablonu gənclik illərimdə Şuşada, Cıdır düzünə yaxın bir yerdə naturadan çəkmişəm. Onu Şuşa xatirəsi olaraq sənə hədiyyə edirəm. Tablonu görər-görməz heyrətimdən donub qaldım. Tabloda əks olunan ev yüzdə-yüz bizim Şuşadakı evimizə bənzəyirdi. Sevincimdən gözlərim yaşardı. Sanki rəssam dostum evimizi işğaldan azad edib mənə qaytarmışdı...



Mən Sona xanımın bu kitabının əlyazmasını oxuyarkən eyni hissləri yaşadım.

Bu şeirlər Şuşadakı evimizə bənzəyirdi...

Bu şeirlər sanki Şuşanı düşmən işğalından azad edib mənə qaytarırdı...

Bu şeirlər sanki parça-parça olmuş Vətənimi Xətai qılıncıyla bütövləşdirib, yeni xəritəsini cızırdı:

**Ağlama göz yaşın duzludur**
**Torpaq şoranlığı sevməz.**
**Məni yurdun bütövlüyü,**
**Səni ayrılıq dincəltməz.**

Bu şeirlər sanki 30-40 il önçəki Şuşada, Cıdır Düzündə nənəli-babalı, atalı-analı, aşınmamış və cılızlaşmamış gözəl dünyamızın gözəl günlərini, gözəl xatirələrini təkrar olaraq mənə canlı yaşadırdılar:

**Səs küyü sükuta satılan evin,**
**Nə yansa divarı, daşı isinməz.**
**Atamın yaddaşı mənim sevincim,**
**Anamla köç etdi, geriyə dönməz.**

Xalq şairi, əziz dostum Sabir Rüstəmxanlının şairənin "Çəhrayı rəngli dünyam" kitabı haqqında yazdığı fikirləri yüzdə-yüz Sona xanımın bütün şeirlərinə şamil etdim: "...burda başqa kitablara qarışmayacaq fərqli bir dünya, fərqli bir ruh və dərin yurd sevgisi, səmimiyyət, zamanın gətirdiyi ağrı-acı, itirdiyimiz torpaqların və dəyərlərin yanğısı, üstəlik, ciddi bir Azərbaycan əxlaqı vardı. Bu sonuncu ifadəni ayrıca vurğulayıram. Çünki təəssüf ki, milli-mənəvi dəyərləri qorumalı və inkişaf etdirməli olan ədəbiyyatın bəzi nümunələri son vaxtlar sanki bilinçli, düşünülmüş surətdə və ya xüsusi sifarişlə, bəlkə də müəlliflərin peşəkarlıq tərbiyəsinin aşağı olması, yəni ədəbi məktəb görmədikləri ucbatından öz ənənəvi simasını, tarixi əhəmiyyət və görəvini itirir".

Mən də Sabir bəyin Sona xanımın yaradıcılığı haqqında zərgər dəqiqliyi ilə söylədiyi bu fikirlərə yüzdə-yüz qatılaraq "CİDDİ BİR AZƏRBAYCAN ƏXLAQI" ifadəsini xüsusi vurğulayır və böyük hərflərlə yazıram. Həqiqətən də Sona xanımın poeziyası başdan-başa "CİDDİ BİR AZƏRBAYCAN ƏXLAQI"na söykənib:

**İlahi, xalqımın dərdi ümmandı,**
**Damla günahları sən bizə yazma.**
**Torpaq itkisini, yurd itkisini,**
**Çadır həyatının tale yükünü,**
**Arsız oynamağın üzünə yozma.**

Və onun "CİDDİ BİR AZƏRBAYCAN ƏXLAQI"na söykənmiş bir-birindən gözəl poetik nümunələri məni hər sətrində Şuşalı, Cıdır Düzülü, Xarı Bülbüllü, nənəli-babalı, atalı-analı, məsum, saf və müqəddəs günlərə aparırdı:

**Vətəndə Vətənə varaq,**
**Yolu yarı yolda qoyaq.**
**Haqqa üz tutub yalvaraq,**
**Çıxaq döyüşdən qəhrəman,**
**Yol başlayıb gedən karvan.**

Sona xanımın çox böyük mənəvi dəyərlərimizdən və mənəvi əxlaqımızdan yoğrulan bu şeirlərinin əsas qayəsi Vətən və vətəndaş problemidir:

**Hələ çox dərdimin dərmanı sirli,**
**Hələ çox açarlar ağ div əlində.**
**Bir xalqın taleyi uduzulan gün,**
**Bağlı qapı oldu Xudafərin də.**

Dərin fəlsəfəyə, ali erudisiyaya və zəngin təfəkkürə malik Sona Vəliyeva yaradıcılığının ayrı-ayrı nümunələrinin mənəvi tarixi kökə, soya söykənməsi ilə yanaşı diqqəti çəkən əsas məqamlardan biri də misralarının hikmətlə süslənməsidir:

**İçində böyüklük gəzdirənlərin**
**Sevinci qəmindən ucada durmaz.**

Onun yaradıcılığının ən əsas və sevindirici üstünlüklərindən biri də dilimizin ana südü kimi müqəddəsliyinə xələl gətirməmək, onun poetik zəngin imkanlarından ustalıqla yararlanmaqdı. Buyurun:

**Nur dedim, nurumuz hanı?**
**İnsan oğlu yer sultanı,**
**Bu xalqın tale kotanı,**
**Daşa düşübdü, düşübdü.**

Sona xanım Vəliyevanın bir-birindən məzmunlu şeirlərini oxuduqca insan mənəviyyatı paklanır, ruhu durulur, əqidəsi saflanır. Mən bu şeirləri sevə-sevə oxudum, İsa bulağı kimi duruldum, insanlığa və ilkinliyə qovuşdum. İndi sıra sizindi əziz oxucular.